Ədalət .- 2025.- 2 may(№16).-S.10.

**Bugünlərdə dəyərli söz adamı, tanınmış şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfli ilə görüşdüm. Həmişəki qaydada hal-əhval tutandan sonra yeni yaradıcılıq uğurlarından danışdıq və məlum oldu ki, Əli Rza Xələflinin yeni kitabı, yeni "Aşiqliyin işığında" oxucu dünyasına gəlibdir.**

Təbii ki, dəyərlimiz Əli Rza Xələflini təbrik etməklə işimi qurtarmış hesab etmədim. Onun mənə bağışladığı həmin kitabı qısa bir zaman içərisində gözdən keçirtdim. Kitabı oxuyarkən diqqətimi çəkən ilk məqam müəllifin oxuculara ünvanladığı fikir səcdə, güvənc, inam, sevgi qərar tutur.

Təbii ki, hər kəsin özəl pərəstiş, sevgi ünvanı var və Əli Rza Xələflinin də bu inamı, bu sevgisi həm özəldi, həm də necə deyərlər, saf və gözəldi.

Ona görə də bu kitabın "rəylər, düşüncələr" bölümündə verilmiş yazılarda da xüsusi olaraq həmin sevgi, həmin məhəbbət qeyd olunur və ona müxtəlif prizmalardan münasibət bildirilir. Yenə qeyd etmək istəyirəm ki, elə həmin o münasibətlərin özünün də mayasında məhz Əli Rza Xələfli sevgisinin möhtəşəmliyi hakimdi. Ümumiyyətlə isə birmənalı






# "Aşiqliyin işığında"

oldu. Müəllif qeyd edir ki: "Hərdən məndən soruşurlar: Həzrət Əli aşiqliyin Babək sevgisi üzərinə kölgə salmır ki? Mən də cavab verirəm: Bəşəri insanla, milli-əxlaqi dəyər sahibləri, Vətən şəhidləri heç bir məqamda üz-üzə gəlmir, toqquşmurlar.

Onlar əbədi dəyər gücündə həmişə qalibdirlər. Mənim düşüncəmdə Əli İbn Əbu Talib - "Nəhcül bəlağə" müəllifi kimi ağıl, məntiq, söz sərrafının ustadıdır. Şərq fəlsəfi məktəbinin, hikmət aləminin ən qüdrətli bağbanlarından biridir.

Onun söz çəmənzarı zamanlar durduqca ətri, rayihəsi rəngi heç vaxt solmayacaq güllərlə göz oxşayacaq. Əli İbn-Əbu Talib şəxsiyyət etibarı ilə də həqiqət tərəfdarı olub. Özünün və övladlarının timsalında şəhidliyin yenilməzlik məktəbini yaradıb".

Sizə də təqdim etdiyim bu sətirlər artıq məndə kitabın məzmunu barəsində müəyyən bir fikir formalaşdırdı.

Elə həmin o fikirin işığında da müəllifin "Aşiqliyin işığında" (poetik əsərlər) adlandırdığı bu kitabı demək olar ki, həm maraqla, həm də müəyyən mənada öyrənmək anlamında oxudum. Etiraf edim ki, Əli Rza Xələflinin bu aşiqliyi mənim üçün gözlənilməz idi. Ona görə də onun Həzrət Əliyə ünvanlanan misraları içimdə xoş duyğular yaratdı və bu sevginin ötəri olmadığına məni həqiqətən inandırdı. Yeri gəlmişkən onu da əlavə edim ki, bu kitabdakı hər sözün, hər fikrin mayasında, arxasında və bütövlüyündə məhz həmin o sevgi dayanır. Yəni Həzrət Əliyə olan olaraq vurğulamaq yerinə düşər ki, bu kitabda, yeni şair-publisist Əli Rza Xələfli sözünün indiki məqamda bütün təsviri və təqdimi məhz Həzrət Əliyə bir qələm adamının fərdi, həm də bir insanın bütövlükdə aşıb-daşan məhəbbəti sərgilənib.

Əgər həmin söylədiklərimi əyani görmək, tanış olmaq, yaşamaq istəyirsinizsə, mütləq "Aşiqliyin işığında" kitabını arayıb-axtarın. Onda mənim fikirlərimlə siz də razılaşacaqsınız. Son olaraq şairin bu kitabdakı möhtəşəm duyğularının ifadəsi olan "Hələ dünya bilmir ki " qəsidəsindən bir parçasına diqqət yetirək:

*Min illərin təzəsi - təravətsən, ya Əli!*
*Min dürlü haldan keçən təbiətsən, ya Əli!*

*Sənsən idrak sahibi - elmin yolu, qapısı,*
*Sən "Nəhcül-bəlağə"sən, söz, hikmətsən, ya Əli!*

*Nə Allah, nə peyğəmbər, nə hakimsən, nə məhkum,*
*Fəqət Ərşi - Əlaya bir zinətsən, ya Əli!*

*Bir qələmdir, bir kağız - qəlbimə işıq göndər,*
*Güc gəlsin varlığıma - dəyanətsən, ya Əli!*

*Zülfüqar tək qılınc yox, Əlik imi cəngavər,*
*Haqqın hökmü, qanunu, ədalətsən, ya Əli!*

*Əfsanəsən dillərdə, adın zirvə, ucalıq,*
*Əbədi nağıl, dastan, hekayətsən, ya Əli!*

*Hələ dünya bilmir ki, axıracan əzəlsən,*
*Adəmdən Xatəməcən əlamətsən, ya Əli!*

*Hər insan öz dilində oxunsa bir kitabdır,*
*Sən kitablar kitabı - kəramətsən, ya Əli!*

"Gənclik" nəşriyyatında işıq üzü görmüş "Aşiqliyin işığında" kitabına "Xoş gəldin!", müəllifinə isə yeni uğurlar arzu edirəm.

**Əbülfət MƏDƏTOĞLU**